# 32 illik uğurlu tərəfdaşlıq

## NATO-nun Baş katibi Yens Stoltenberq Prezident İlham Əliyevin sülh gündəliyini dəstəklədi

**"1992-ci ildə əsası qoyulan NATO-Azərbaycan əlaqələri qarşılıqlı əməkdaşlıq prinsipləri əsasında inkişaf edir. 1994-cü ildən etibarən "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşularaq NATO ilə əlaqələri möhkəmləndirən Azərbaycan Şimali Atlantika Alyansının dünyada sabitliyin qorunması naminə həyata keçirdiyi bütün tədbirlərdə layiqincə təmsil olunur".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Kamran Bayramov deyib. Deputat bildirib ki, demokratik dəyərlərə və prinsiplərə sadiqlik əsasında inkişaf edən bu münasibətlərin nəticəsidir ki, ölkəmizdə ordu quruculuğu ilə bağlı islahatlar NATO standartlarına uyğun aparılır. Dünyanın ən güclü siyasi-hərbi təşkilatı olan, ABŞ və Avropanın bir neçə dövlətini birləşdirən NATO-nun Lissabon, Brüssel, Çikaqo, Uels, Vaşinqton Zirvə görüşlərində, nüvə təhlükəsizliyi məsələsinə həsr olunmuş Koreya, Çikaqo sammitlərində, Münxen Təhlükəsizlik Konfransında məntiqli çıxışları ilə diqqət çəkən Prezident İlham Əliyevin dünyada sülhün, əmin-amanlığın qorunması naminə irəli sürdüyü təkliflər hər zaman maraq doğurub. NATO təmsilçiləri dəfələrlə bildiriblər ki, XXI əsrdə qloballaşan dünyada təhlükəsizlik çağırışlarına dəstək göstərən, müxtəlif illərdə beynəlxalq müdafiə sərgilərinə evsahibliyi edən rəsmi Bakı ilə əməkdaşlıqda israrlıdırlar, dialoqumuzun və əlaqələrimizin güclü potensialı var. İllərin təcrübəsi göstərir ki, NATO-Azərbaycan dialoqunun möhkəm təmələ əsaslanan əməkdaşlıq formatı təkmilləşir, beynəlxalq layihələrin təşəbbüskarı olan Azərbaycanın NATO ilə münasibətləri Avrasiya məkanında əməkdaşlıq imkanlarını genişləndirir.

K.Bayramov qeyd edib ki, NATO-nun Baş katibi Stoltenberqin martın 17-də ölkəmizə rəsmi səfəri Azərbaycanla dialoqun və qarşılıqlı anlaşmanın önəmini göstərir: "Prezident İlham Əliyev və NATO-nun Baş katibi Yens Stoltenberq mətbuata bəyanatla çıxış etdilər. Dövlətimizin başçısı bildirdi ki, Azərbaycan-NATO tərəfdaşlığının 30 ildən artıq davam edən uzun tarixi var. "Tərəfdaşlığımız müsbət olmuşdur. Azərbaycan Kosovoda və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak edib. Bu, bizim üçün böyük təcrübə olub. 2021-ci il avqustun axırında Əfqanıstanı tərk edən sonuncu müttəfiq qüvvələr bizim hərbi qulluqçularımız olmuşlar. Bu isə bir daha bizim əməkdaşlığımıza güclü sadiqliyimizi nümayiş etdirir", - deyən dövlət başçısı Silahlı Qüvvələrimizdə aparılan islahatların yaxşı nəticə verdiyini vurğuladı. Prezident qeyd etdi ki, müdafiə imkanlarımızı müasirləşdiririk və bu gün yüksəksəviyyəli peşəkarlıq nümayiş etdiririk. Azərbaycanın 2020-ci ildə İkinci Qarabağ müharibəsi və ötən ilin sentyabrında həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini xatırladan dövlət başçısı bildirdi ki, ölkənin ərazisi üzərində tam suverenlik bərpa edilib və bu, uzun sürən münaqişələrin necə həll edilə biləcəyinin bariz nümunəsidir".

Deputatın sözlərinə görə, Azərbaycan-NATO əlaqələrinin səmərəsindən, işgüzar əlaqələrin tərəflərə qazandırdığı təcrübələrin əhəmiyyətindən bəhs edən Prezident İlham Əliyev bütün dünyada, eləcə də bölgədə sülhə, sabitliyə və faydalı çağırışlara sadiq olan Azərbaycanın bütün səylərinin yeni müharibə risklərinin minimuma endirilməsinə hesablandığını deyib. Qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinin ən etibarlı yolu isə kommunikasiyaların bərpası, dünya siyasətinə və tərəflərin maraqlarına uyğun dialoqun davam etdirilməsi, tərəfsiz, sağlam düşüncəyə xidmət edən qonşuluq siyasətinə sadiqlikdir.

Öz növbəsində NATO-nun Baş katibi Yens Stoltenberq də bildirib ki, tərəfdaşlıq təkcə siyasi dialoqa yox, o cümlədən əyani əməkdaşlığa söykənir və bunu alqışlayırlar. Deputat NATO Baş katibinin regionla bağlı fikirlərinə də aydınlıq gətirdi: "Baş katib dedi ki, regionda sülh bölgə xalqları və ölkələri üçün çox vacibdir. Sülh, həmçinin Qara dəniz regionu və Şimali Atlantika təhlükəsizliyi üçün də əhəmiyyətlidir. Uzun illərin münaqişəsindən sonra Ermənistan ilə Azərbaycan arasında hazırda davamlı sülhə nail olmaq imkanı yaranıb. Prezidentin sülh sazişinə heç vaxt olmadığı qədər yaxın olmağımızla bağlı sözlərini yüksək qiymətləndirən Yens Stoltenberq Ermənistanla dayanıqlı sülh sazişinə nail olmaq üçün həmin fürsətdən istifadə etməyində Prezident İlham Əliyevi dəstəklədiyini bəyan etdi".

Stoltenberq Rusiyanın Ukraynaya qarşı müharibəni hələ də davam etdirməsindən narahatlığını ifadə edərək qeyd etdi ki, NATO müttəfiqləri Ukraynaya dəstək göstərirlər. O, Azərbaycanın da Ukraynaya göstərdiyi çox zəruri dəstəyi də alqışladığını bildirdi. Baş katib, eyni zamanda Azərbaycanda keçiriləcək növbəti COP29 toplantısını səbirsizliklə gözlədiyini vurğuladı və bildirdi ki, iqlim dəyişmələri təhlükəsizlik üçün vacibdir və buna görə də o, NATO üçün əhəmiyyətlidir.

K.Bayramov əlavə edib ki, dünya siyasətində həlledici rola malik olan qlobal güc mərkəzləri ilə münasibətlərini milli maraq və tərəflərin mənafelərinə uyğun formalaşdırmaqla bölgədə təhlükəsizliyə və əməkdaşlığa böyük töhfələr verən Azərbaycana göstərilən belə yüksək etimad qarşıdakı illərdə NATO-Azərbaycan əməkdaşlığının yeni istiqamətlərinin ifadəsidir. Yaranan geniş imkanlar, dünya siyasətinin tələblərinə, müasir dövrün çağırışlarına uyğun mövqeyi ilə fərqlənən ölkəmizə göstərilən diqqət diplomatiyamızın növbəti uğurudur.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 19 mart, № 61.- S.8.